# EFAA-nın yeni informasiya bülleteni

## EFFA bülleteni geri qayıdır

Biz sizə hər rüblükdə  mühasibatlıq ,audit və bizim heyət üzvlərimizin maraqlandığı digər sahələrdəki  Beynəlxalq, Avropa və Qlobal  inkişaflar haqqında məlumat vermək istərdik.Hər rübün əvvəlində biz sizi tənzimləyici və qanunverici təbiətin cari inkişafları həmçinin EFAA və üzv təşkilatlarının yenilənmiş fəaliyyətləri ilə təmin etmək istərdik. Həmişə olduğu kimi, bizim sizin dəstəyinizə ehtiyacımız var. Bu sizin informasiya bülleteninizdir və beləliklə, biz sizin rəyləriniz, tədbirləriniz, inkişaflarınız haqqında bilmək istərdik. Bizimlə əlaqə saxlayın.

# Avropa  Birliyi Qanunvericiliyi

## Audit Qanunvericiliyində razılaşma əldə olundu

Avropa Parlamenti Avropa Birliyi Audit xidmətləri bazarında islahat etmək üçün 3 aprel 2014-cü ildə  Avropa  Birliyi Qanunvericiliyinin razılaşdırılmış mətninin xeyrinə səs verdi. „Audit islahat  paketi” qaydalardan və 3 əsas məqsəddən ibarətdir: Beynəlxalq audit standartlarına əsasən audit keyfiyyətinin inkişafı, Avropa Birliyi audit bazarında rəqabəti aşkarlamaq, şəffaflığı artırmaq və qeyri-audit xidmətlərinin sərbəstliyini artırmaq. Göstərişlərin çoxu  növbəti 2-3 il ərzində qüvvəyə minəcək.
EFAA bu qanunvericilik haqqında sonra məlumat verəcək.

## Peşə ixtisasının tanınmasına yenidən baxıldı

Direktivin, Peşə ixtisasının tanınması və Daxili Bazar İnformasiya Sistemi Tənzimlənməsinə yenidən baxması Yeni Peşə İxtisası Direktivi ilə nəticələndi. (2013/55/AB). Bu 17 yanvar 2014-cü ildə qüvvəyə mindi. Yenidən baxılan Direktivin aparıcı bəndlərinə peşəyə qismən keçid imkanı,vahid peşə kartı və peşə nizamlanmasının şəffaflığı haqqında qaydalar daxildir.

## Qarşıdakı tədbirlər

22-25 may

Avropa  Parlament Seçkiləri

5 iyun

EFAA-nın 2014-cü il Konfransı - SME-lər üçün Vergi və Mühasibatlıq məsələləri,Budapeşt

6 iyun

EFAA-nın Ümumi Qurultayı, Budapeşt

13 iyun

İESBA-nın qanun və qaydalarda qeyri-uyğunluq haqqında dəyirmi masası

## Ən son nəşr olunan sənədlər

IAASB-nin müzakirə məqaləsində EFAA-nın rəyləri

- Maliyyə Hesabatı üçün konseptual strukturun icmalı

IAASB-nin ilkin layihəsində EFAA-nın rəyləri

-Audit Maliyyə Hesabatı haqqında məlumat

-Təklif edilmiş  və yenidən nəzərdən keçirilmiş Beynəlxalq Audit Standartları

## Tezliklə

Həyata keçirilən Yeni Avropa Mühasibatlıq Direktivində düzgün seçimlər etmək

EFAA-nın hesabatı

IAASB-nın strategiyasına və iş planına həsr olunmuş Muşavirə  sənədinə EFAA-nın cavabı

# EFAA-nın Fəaliyyətləri

## Audit hesabatının tədqiqi

EFAA (Audit ekspert qrupu ilə) bir çox üzvləri ilə İAASB-nin audit hesabatı üçün dəyişikləri əhatə edən təklifləri  ünvanlamaq üçün təqiqatı  başa çatdırdı. Audit hesabatlarına edilən tələblərinə təklif olunmuş dəyişikliklərin hər birində

respondentlərin rəy və əks əlaqəsini əks etdirən tədqiqat İngilis,Alman,Polyak və İspan dilində çap edildi.

Tədqiqat 2013-cü il sentyabr/oktyabr aylarında həyata keçirildi və EFAA 50-dən çox ökədən cavab aldığı üçün məmnun oldu.Tədqiqat cavablarında ,bu, kateqoriya daxilində kifayət qədər saylara görə müəyyən ölkələr və respondentlərin kateqoriyaları arasında fərqlərin təhlilini tapmağın mümkünlüyünü sübut etdi.

Hesabata müşahidələr və tövsiyələr daxildir və biz inanırıqki, bu İAASB-nin və qanunvericilərin marağına səbəb olacaq. Tədqiqat assosiasiyada WPK ilə birlikdə IAASB,Avropa Komissiyası və Avropa Parlamenti Üzvlərinə 2014-cü il yanvarda təqdim olundu və EFAA-nın təqdim olunmuş sənədləri və təqdimatları haqqında standart yaradıcılarına və audit işlərindəki qanunvericilərə məlumat verməyə davam edəcək.

Təqiqatçı respondentlər tərəfindən aydındır ki,audit xidməti, siyahıya daxil edilən müəssisələrin sferasından kənarda da, əsas xidmət olaraq qalır.

Bir çox kiçik müəsssisələr qanunla müəyyən edilmiş audit tələblərindən azad olmasına baxmıyaraq , müəyyən məhkəmə hüquqlarında, SMP-lar qanunla müəyyən edilmiş audit və qeyri-audit xidmətlərinin həyata keçirilməsinə imkan verməyən etik göstərişlərin qarşısını alır.

## Yeni mühasibat Direktivini həyata keçirmək (2013/34/AB)

Avropa Birliyi üzv dövlətləri Mühasibatlıq Direktivini 2015-ci il iyunun 15-də milli qanuna çevrilməlidir. Direktiv yenilənməsinin əsas məqsədi Avropada eyninövlü mühasibat strukturunu yaratmaqdır.Son nəticədə Direktiv daxilində Üzv Dövlət hüquqları (MSO) saxlandığı üçün bu məqsəd baş tutmadı.Avropa Birliyi Üzv Dövlətləri Direktivin həyata keçirilməsi zamanı qərar qəbul etməyə kömək etdiyi üçün, EFAA MSO-lar haqqında hesabat və kriteriyanı hazırladı və burada hansı MSO-ların heyətdə iştirak edəcəyi və bu MSO-ların , "yaxşı mühasibatlıq işi"-nin həyata keçirməsi və eləcə də SME-lərin həddən artıq yüklənməməsi nəzərə alındı.

Bu hesabat nəşr edilib və nəşri tapmaq üçün www.efaa.com saytına müraciət edə bilərsiniz.

### Maliyyə hesabatları hazırlanan zaman SME-in ehtiyaclarını və gözləntilərini öyrənmək

Avropa Komissiyası tərəfindən Avropa Birliyi mühasibatlıq qaydaları ilə əhatə olunmayan SME-larda maliyyə hesabatlarının istifadəsi qiymətləndirilərkən E&Y-a tədqiq etmək səlahiyyəti verildi.EFAA bu tədqiqatda iştirak etmiş ekspert qrupunun bir hissəsidir və qanunda ediləcək hər hansı dəyişiklikliyi və nəticəni bildirdiyi halda bu daha çox dəlil toplamaq üçün faydalı olacaq.

### EFAA-nın 2014-cü ildə Budapeştdə keçiriləcək konfransı

Bizim Macarıstan üzvümüz , Tax Moklasz tərəfindən təşkil olunmuş EFAA konfransı 5 iyunda keçiriləcək.Mövzu **SME-lər üçün Vergi və Mühasibatlıq məsələləri** olacaq.Konfrans Aqiuncum otelində həyata keçiriləcək və konfransın bütün proqramı qısaca elan olunacaq.

## Digər EFAA məsələləri

### Hans Rijkse zadəgan rütbəsi ilə təltif olundu

EFAA üzvü Hans Rijkse 28 mart 2014-cü ildə zadəgan rütbəsi ilə təltif olundu. Hans Rijkse Mühasib partnyoru kimi uğuru və bir çox ictimai təşkilatlardakı rütbəsinə görə Hollandiya meri tərəfindən təqdim olunmuş ordenə layiq görüldü.